**Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarının elan edilməsi barədə Azərbaycan Respublikası təhsil nazirinin əmri**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 13 dekabr tarixli 203 nömrəli qərarını elan edirəm:

**«AZƏRBAYCAN RESPUBLİKASININ**

**NAZİRLƏR KABİNETİ**

**Q Ə R A R**

**№ 203**

**Bakı şəhəri, 13 dekabr 2011-ci il**

**Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin "Minimum aylıq əməkhaqqının artırılması haqqında" 2011-ci il 1 dekabr tarixli 1866 nömrəli, "Təhsil müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" 2011-ci il 5 dekabr tarixli 1867 nömrəli, "Səhiyyə müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" 2011-ci il 6 dekabr tarixli 1868 nömrəli, "Mədəniyyət, gənclər və idman müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" 2011-ci il 7 dekabr tarixli 1869 nömrəli, "Dövlət büdcəsindən maliyyələşdirilən elm və elmi tədqiqat müəssisə, idarə və təşkilatlarında (Azərbaycan Milli Elmlər Akademiyasının tabeliyində olanlar istisna olmaqla) çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" 2011-ci il 8 dekabr tarixli 1870 nömrəli, "Sosial təminat müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" 2011-ci il 9 dekabr tarixli 1871 nömrəli, "Kənd təsərrüfatı, meşə təsərrüfatı, meliorasiya və su təsərrüfatı, ətraf mühitin mühafizəsi, hidrometeorologiya və balıqartırma sahələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" 2011-ci il 10 dekabr tarixli 1872 nömrəli sərəncamlarının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 158-ci maddəsinin 2-ci hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti

**QƏRARA ALIR:**

1. Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının məbləği bu qərarın 1 və 2 nömrəli əlavələrinə uyğun olaraq müəyyən edilsin.

2. «Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 27 sentyabr tarixli 166 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 9, maddə 832; 2011, № 7, maddə 736) (2-ci bənd istisna olmaqla) ləğv edilsin.

3. Bu qərar 2011-ci il dekabrın 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Artur Rasi-zadə**

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2011-ci il 13 dekabr
tarixli 203 nömrəli qərarına
**1 nömrəli əlavə**

**Dövlət büdcəsindən maliyyələşdirilən müəssisələrdə (Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA), AMEA-nın Naxçıvan bölməsinin tabeliyində olan elm və elmi tədqiqat müəssisələri istisna olmaqla) çalışan işçilərin əməyinin ödənilməsinin**

**Vahid Tarif Cədvəli**

| Əməyin ödənilməsi dərəcələri | Aylıq tarif (vəzifə) maaşı (manatla) |
|---|---|
| 1 | 93,5 |
| 2 | 98 |
| 3 | 103 |
| 4 | 108 |
| 5 | 113 |
| 6 | 118 |
| 7 | 123 |
| 8 | 128 |
| 9 | 133 |
| 10 | 138 |
| 11 | 143 |
| 12 | 150 |
| 13 | 162 |
| 14 | 174 |
| 15 | 188 |
| 16 | 220 |

| | |
|---|---|
| 17 | 303 |
| 18 | 382 |
| 19 | 644 |

**Aparatın rəhbəri** **Ağa-bala Hacıyev**

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2011-ci il 13 dekabr
tarixli 203 nömrəli qərarına
**2 nömrəli əlavə**

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA), AMEA-nın Naxçıvan bölməsinin tabeliyində olan dövlət büdcəsindən maliyyələşdirilən elm və elmi tədqiqat müəssisələrində çalışan işçilərin əməyinin ödənilməsinin**

**Vahid Tarif Cədvəli**

| Əməyin ödənilməsi dərəcələri | Aylıq tarif (vəzifə) maaşı (manatla) |
|---|---|
| 1 | 120 |
| 2 | 125 |
| 3 | 130 |
| 4 | 135 |
| 5 | 140 |
| 6 | 145 |
| 7 | 150 |
| 8 | 160 |
| 9 | 170 |
| 10 | 180 |
| 11 | 190 |
| 12 | 200 |
| 13 | 210 |
| 14 | 230 |
| 15 | 250 |
| 16 | 290 |
| 17 | 370 |
| 18 | 450 |
| 19 | 680 |

**Aparatın rəhbəri** **Ağa-bala Hacıyev»**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin göstərilən qərarının icrası ilə əlaqədar

**ƏMR EDIRƏM:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 dekabr 2011-ci il tarixli 203 nömrəli qərarı rəhbərlik və icra üçün qəbul edilsin.

**2.** Bakı Şəhəri üzrə Təhsil İdarəsinə, Nazirliyin tabeliyində olan və birbaşa Nazirlik tərəfindən maliyyələşdirilən tədris müəssisə, idarə və təşkilatların rəhbərlərinə tapşırılsın:

**2.1.** Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının məbləğlərinin artımı ilə əlaqədar olaraq ştat və tarifləşmə cədvəllərində müvafiq dəyişikliklərin aparılmasını və həmin cədvəlləri təsdiq edərək bir nüsxəsinin Nazirliyin İqtisadiyyat şöbəsinə təqdim olunmasını təmin etsinlər;

**2.2.** işçilərin aylıq əməkhaqlarının Nazirlər Kabinetinin yuxarıda göstərilən qərarının 1 nömrəli əlavəsinə uyğun ödənilməsini təmin etsinlər;

**2.3.** əməkhaqlarının artımı ilə bağlı 211100 «Ştatda olan işçilərin əməkhaqqı» xərc yarımmaddəsi üzrə 2010-cu ilə təsdiq olunmuş xərclər smetasında nəzərdə tutulmuş proqnozdan əlavə vəsaitə ehtiyac yaranarsa bu barədə müvafiq hesablamaların və məlumatların qısa müddət ərzində Nazirliyin İqtisadiyyat şöbəsinə təqdim olunmasını təmin etsinlər.

**3.** İqtisadiyyat şöbəsinə (Ş.Əliyev) tapşırılsın:

**3.1.** Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının məbləğlərinin artımı ilə əlaqədar olaraq tabelikdə olan və birbaşa Nazirlik tərəfindən maliyyələşdirilən tədris müəssisə, idarə və təşkilatlar tərəfindən ştat və tarifləşmə cədvəllərində müvafiq dəyişikliklər aparılaraq Nazirliyə təqdim olunmasına nəzarət etsin;

**3.2.** Nazirliyin tabeliyində olan və birbaşa Nazirlik tərəfindən maliyyələşdirilən təşkilatlarda işçilərin əməkhaqlarının Nazirlər Kabinetinin yuxarıda göstərilən qərarına əsasən ödənilməsi üçün kredit açılışı zamanı müəyyən olunmuş vəsaitin təşkilatların hesabına köçürülməsini təmin etsin;

**3.3.** təşkilatlar tərəfindən 211100 «Ştatda olan işçilərin əməkhaqqı» xərc yarımmaddəsi üzrə əlavə vəsaitə tələbatla bağlı təqdim olunan hesablamalara və məlumatlara əsasən xərclər smetasında müvafiq dəyişikliklərin aparılmasını təmin etsin.

**4.** «Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi haqqında» 2010-cu il 27 sentyabr tarixli 166 nömrəli Qərarı»nın elan edilməsi haqqında Təhsil Nazirliyinin 07 oktyabr 2010-cu il tarixli 1323 nömrəli əmri qüvvədən düşmüş hesab edilsin.

**5.** Ümumi şöbənin müdiri (X.Fərəcov) əmrin çoxaldılaraq təhsil müəssisələrinə çatdırılmasını təmin etsin.

**6.** Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

***Misir MƏRDANOV,***<br>
***Azərbaycan Respublikasının təhsil naziri***<br>
***19 dekabr 2011-ci il***<br>
***№ 2104***